Ədəbiyyat qəzeti
11 oktyabr 2025-ci il 25

# Avtandil AĞBABA-70



Hörmətli Avtandil müəllim!

Sizi - tanınmış şair-publisist, folklorşünas, filologiya elmləri doktoru, professoru 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1955-ci ildə Qərbi Azərbaycanın Ağbaba mahalının Balıqlı kəndində anadan olmusunuz. Balıqlı kənd səkkizillik məktəbini bitirdikdən sonra Təpəköy orta məktəbində təhsil almısınız. "Anam" adlı ilk şeiriniz 1972-ci ildə Qərbi Azərbaycanın Amasya rayonunda çıxan "Əmək" qəzetində çap olunub. 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmisiniz.

1978-ci ildən pedaqoji fəaliyyətlə məşğul olursunuz. Müxtəlif illərdə orta məktəb və liseylərdə Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi çalışmısınız. 1988-ci ildən məlum hadisələrlə əlaqədar Sumqayıtda məskunlaşmısınız. 2005-ci ildə "Qərbi Azərbaycan folklor ədəbi mühiti (Ağbaba-Şörəyel materialı əsasında)" mövzusunda filologiya üzrə fəlsəfə doktoru, 2016-cı ildə "Azərbaycan aşıq yaradıcılığının regional xüsusiyyətləri (Ağbaba-Çıldır aşıq mühiti)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmisiniz. 2000-ci ildən Sumqayıt Dövlət Universitetinin əməkdaşı olaraq burada müəllimlikdən professorluğa qədər yüksəlmisiniz. 2005-2024-cü illərdə SDU-nun Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri vəzifəsində çalışmısınız.

Azərbaycan aşıq yaradıcılığının, Qərbi Azərbaycan folklorunun aktual problemlərinin məşhur tədqiqatçısı kimi sizin Türkiyə, Rusiya, Ukrayna, Polşa, İspaniya, Gürcüstan və başqa ölkələrdə araşdırmalarınız nəşr edilmiş, bir sıra beynəlxalq elmi konfranslarda çıxışınız dinlənilmişdir.

Siz 1993-1994-cü illərdə "Ulu Göyçə", 1998-ci ildə ictimai əsaslarla "Ağrıdağ" qəzetlərinin xüsusi müxbiri vəzifəsində işləmiş və Qərbi Azərbaycanla bağlı silsilə yazılar çap etdirmisiniz. "Ədəbi İrəvan" almanaxının redaksiya heyətinin üzvüsünüz.

"Ağbabaya gedən yollar", "Durnalar işığa uçur", "Yurd yerinin ağrısı" adlı üç şeir kitabının, "Ağbaba şəhidləri", "Oğuz yurdu Güllübulaq", "Mən torpaq oğluyam", "Ömrün izləri", "Elmimizin Abeli" kimi beş publisistik əsərin, beş monoqrafiyanın, ali məktəblər üçün iki dərsliyin və bir dərs vəsaitinin, üç yüzə yaxın elmi və bədii-publisistik məqalənin müəllifisiniz.

2011-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Diaspor Mərkəzinin fəxri diplomunun, 2021-ci ildə "Mifologiya dərsliyinə görə SDU üzrə "Ən yaxşı dərslik və dərs vəsaiti" nominasiyalarının qalibi olmusunuz.

2005-ci ildə Qərbi Azərbaycan İcmasının Fəxri fərmanına, 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Əməkdar jurnalist fəxri adına layiq görülmüsünüz.

Hörmətli Avtandil müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*